# Böyük yarışlara ev sahibliyi edəcək məkan







## AzTU-nun idman sarayı əvvəlki şöhrətini bərpa etməyə iddialıdır

**Ruhiyyə DAŞSALAHLI**

Bakıda bir ilk. Ali təhsil müəssisəsinə məxsus beynəlxalq standartlarda, müasir tələblərə uyğun, son texnologiyanın nümunəsi sayılan avadanlıqlarla təchiz olunmuş nəhəng idman sarayı. Bəli, məhz saray. Bir qatı yerin altında, dört qatı da üstündə olmaqla beşmərtəbəli bina.

Bu təsvir Azərbaycan Texniki Universitetinin (AzTU) Ayna Sultanova küçəsində yerləşən idman sarayına aiddir. Yasamal rayonu ərazisindəki bu bina artıq sadəcə AzTU-nun idmançı tələbələrinə deyil, peşəkar idman ictimaiyyətinə də xidmət göstərəcək.

### Ötən əsrin təşəbbüsü...

Bakıda Əl Oyunları Sarayı istifadəyə verilənə qədər böyük yarışlara məhz bu saray ev sahibliyi edib. Özü də bu günün, dünənin tikilisi deyil. Ona hələ ötən əsrin 60-cı illərində zərurət yaranıb. AzTU-nun o vaxtkı rəhbərliyi bu zərurəti Azərbaycan SSR-in rəhbərliyinə çatdırıb. Azərbaycan Politexnik İnstitutunda, yəni indiki AzTU-da tələbələrin idman etmək üçün bir zala ehtiyacı olduğu bildirilib. Maraqlı məqam ondan ibarətdir ki, ölkədəki bir çox saray kimi, bu idman sarayının da bünövrəsini ulu öndərimiz Heydər Əliyev qoyub. Məhz onun təşəbbüsü və şəxsi nəzarəti altında 1973-cü ildə sarayın tikintisi başa çatdırılaraq institutun istifadəsinə verilib. Həmin vaxt beşmərtəbəli, 1782 kv.m-lik bir sahəni əhatə edən bu idman sarayında 7 xüsusi zal və bir neçə yardımçı otaq olub. İdman yarışlarını müşahidə etmək üçün 500 nəfərlik tamaşaçı zalı ilə yanaşı, 465 kv.m sahəsi olan güləş zalı, 672 kv.m sahəsi olan trenajor və ağır atletika zalı, 97,7 kv.m sahəsi olan boks zalı, 78 kv.m sahəsi olan stolüstü tennis zalı, 78 kv.m sahəsi olan gimnastika zalı, 120 kv.m sahəsi olan paltardəyişmə otaqları fəaliyyət göstərib. Burada, həmçinin 120 kv.m sahəsi olan müxtəlif bitki növləri ilə zəngin "qış bağı", tədris filmlərini nümayiş etdirmək üçün 72 kv.m sahəsi olan kino zalı, 13,6 kv.m sahəsi olan radio qovşağı, 72 kv.m-lik yeməkxana, 758 kv.m sahəsi olan tematik mozaika ilə bəzədilmiş vestibül, müasir tələblərə cavab verən 54 kv.m sahəsi olan duş otaqları və digər xidmət obyektləri də olub.

Ümummilli liderin sadəcə bu sarayın tikilməsi ilə Azərbaycan təhsili və ölkə idmanı üçün nələrə nail olduğunu görməkdən ötrü o vaxtdan keçən bir qərinədən artıq zaman kəsiyində baş verənlərə baxaq:

Universitetin idmançı tələbələri Azərbaycanda, SSRİ və dünya miqyasında keçirilən yarışlarda böyük uğurlar qazanıb. Futbol, voleybol və basketbol üzrə komandalarımız respublika və İttifaq miqyaslı yarışlarda layiqli yer tutaraq yüksək mükafatlar alıblar.

İdman sarayı istifadəyə verildikdən sonra tələbələr arasında müxtəlif sahələr üzrə xeyli idman ustaları yetişib. Onlardan 18 nəfəri İttifaq və beynəlxalq yarışlarda yer tutub, bəziləri isə Avropa və dünya çempionu olublar. Özü də ayrı-ayrı idman növləri üzrə. Elxan Nuriyev armrestlink (qol sıxma) üzrə, Bəxtiyar Quliyev, Əkbər Fərəcov, Vüqar Namazov isə paurliftinq idmanı üzrə həm Avropa, həm dünya çempionu titulunu qazanıblar.

İdman sarayından çıxan, burada yetişən idmançı tələbələrin uğurları XXI əsrdə də davam edib. Belə ki, 2000-ci ildə Rusiyada keçirilən Xəzəryanı ölkələrin birinci spartakiadasında AzTU komandası 1 qızıl, 3 gümüş və 3 bürünc medal qazanaraq ölkəmizin idman şöhrətini daha da yüksəldib.

Universitetin tələbələri respublika üzrə keçirilən bəzi yarışlarda, hətta Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yığma komandasına da qalib gələrək ölkə birincisi olublar.

İdman sarayının şöhrətindən pay götürən AzTU-nun məşhur tələbələrindən biri, basketbol üzrə beynəlxalq dərəcəli hakim Ələkbər Həsənov 1994-cü ildə Texniki Universitetin avtomatika və kompüter texnologiyaları fakültəsinə daxil olub. O, tələbəlik illərini belə xatırlayıb: "Orta məktəbdə idman dərslərində top dalınca çox qaçsaq da, peşəkar qaydada məşğul olmamışdım. Universitetdə basketbol seksiyasına getdim. Bir il ərzində bizdən çox yaxşı basketbol komandası əmələ gəldi. Qısa müddətdə universitetlər arasında barəmizdə danışmağa başladılar. Məşqçimiz bizi sıfırdan yaxşı bir səviyyəyə qaldırdı. Ancaq etiraf etməliyəm ki, çox çətin idi. Günün birinci yarısında dərslərdə, ikinci yarısında isə məşqlərdə saatlarla məşğul olurduq. Təsəvvür edin ki, universitetə daxil olanda boyum 166 sm. idi. 1 il sonra 178-ə çatmışdı. Buna baxmayaraq, boyumun peşəkar basketbolla məşğul olmağıma imkan verməyəcəyini anlayırdım. Odur ki, hakimliyə yönəldim və 2010-cu ilin aprelində beynəlxalq lisenziya aldım. Artıq ölkəmizdə beynəlxalq dərəcəli 5 azərbaycanlı hakimdən biriyəm. Bununla çox qürur duyuram. Bu yaxınlarda mənimlə əlaqə saxlayıb gənclərə seminar keçirməyim təklif olunmuşdu. Elə sevinirdim ki. Öz təcrübəmi, idmana gec gəlib böyük uğur əldə etməyimi, necə nailiyyət qazandığımı gənclərə danışmaq istəyirdim. Çox həvəslənmişdim. Deyəsən, həmin tədbir təxirə düşdü. Hesab edirəm ki, yeniyetmə və gənclər idmanla məşğul olmalıdır. Bu, mütləqdir. Həm oxuyub, həm idman meydanlarında uğur qazanmaq ayrı hisslər yaşadır insana. Həmin hissləri bütün gənclərin dadmasını arzulayıram. Düşünürəm ki, nəinki idmanı yarımçıq qoymaq, əksinə, idman bacarıqlarını ali təhsil müəssisələrinə qəbul olunandan sonra da davam etdirmək lazımdır. Mən universitetdə sıfırdan başlayıb bu qədər uğur qazandım. Uşaqlıqdan peşəkar idmanla məşğul olanların nailiyyətləri qat-qat çox ola bilər".

### ...müasir dövrün tələbinə çevriləndə

Bir sözlə, şərait imkan verib ki, respublika ali məktəblərinin spartakiadaları və universiadaları, eləcə də idmanın müxtəlif növləri üzrə keçmiş SSRİ çempionatları və bir sıra beynəlxalq yarışlar bu idman sarayında keçirilib. Sonradan bir çox şey dəyişib. Əsr dəyişib, zamanın hökmü dəyişib, rejim dəyişib, hakimiyyət dəyişib. Ölkəmiz artıq müstəqillik qazanıb. Dəyişikliklər bu qədər çox olunca, idman sarayının dəyişmədən qalması öz sözünü deyib. Tədricən uğurlar azalmağa, qələbələr seyrəlməyə, yarışların arası uzanmağa başlayıb. Yəni, müasir dünyanın tələbləri dəyişdikcə, sarayın yetirmələrinin siyahısı da qısalıb. Ölkədə biri-birinin ardınca ucalan böyük, peşəkar idman arenalarının sayı artdıqca, idman sarayı nüfuzunu itirib. "Artıq bütün qələbələr, uğurlar keçmişdə qaldı", - deyiləcəkdi ki, zaman yenidən bu sarayın üzünə gülüb...

Sarayın bugünkü görkəmi sübut edir ki, burada hələ çox yarış keçiriləcək, böyük qələbələr qazanılacaq. Niyə də olmasın?! Axı, İdman Sarayına ikinci nəfəs verilib. Taleyin hökmünə bax ki, ulu öndər Heydər Əliyevin həyat bəxş etdiyi saraya ikinci nəfəsi onun oğlu, siyasi davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev verib.

**Sarayın bugünkü görkəmi sübut edir ki, burada hələ çox yarış keçiriləcək, böyük qələbələr qazanılacaq. Niyə də olmasın?! Axı, İdman Sarayına ikinci nəfəs verilib. Taleyin hökmünə bax ki, ulu öndər Heydər Əliyevin həyat bəxş etdiyi saraya ikinci nəfəsi onun oğlu, siyasi davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev verib.**

Yenidən Azərbaycanın sayılıb-seçilən idman arenaları arasına qatılan saray dünyada öz yerini tutmağa iddialıdır. Bir çox ölkədə, o cümlədən Çində ali təhsil müəssisələrinin beynəlxalq yarışlara ev sahibliyi edəcək qədər yüksək səviyyəli stadionları var. Hətta Çində keçirilən Olimpiya Oyunları zamanı əsas arenalar siyahısında məhz həmin idman zallarının da adı əks olunmuşdu. Uzun illər Azərbaycanda çoxları bu cür faktlara təəccüb dolu nəzərlərlə baxırdı. Artıq Bakıda da belə bir arena olacaq: Azərbaycan Texniki Universitetinin (AzTU) idman sarayı.

### Böyük yarışlara ev sahibliyi edəcək

Görünən odur ki, yüksək səviyyəli idman zalları olan orta ümumtəhsil məktəblərindən sonra sıra ali təhsil müəssisələrinə çatıb və proses Azərbaycan Texniki Universitetindən başlanılıb. İndiyədək mövcud olan və universitet tələbələrinin idman dərslərini keçdiyi bir neçə zaldan ibarət tikili təmir olunaraq müasir tipli idman sarayı kimi istifadəyə verilib. İdman sarayının direktoru Bəhram Mirzəyevin sözlərinə görə, texniki cəhətdən tam təchiz olunan binada nəinki məşqlər, hətta çempionat keçirmək üçün də tam şərait yaradılıb. Odur ki, badminton üzrə Azərbaycan çempionatının keçiriləcəyi məkan olaraq da məhz bu saray seçilib. Üstəlik, bu, sarayın ev sahibliyi etdiyi ilk çempionat da deyil. Burada həndbol üzrə peşəkarlar arasında çempionat da baş tutub. Uzun sözün qısası, hələ açılışı olmadan artıq peşəkar idmançıların diqqətini çəkib. Tezliklə dünyanın da diqqətini çəkəcəyi şübhəsizdir. Çünki İdman sarayı bir çox göstəricisinə görə, böyük yarışlara ev sahibliyi edəcək statusdadır: "1804.16 kv.m ölçüdə, 928 oturacaq yerlik universal zalı hündürlüyünə görə də Bakıda 2-3 məkandan biridir. 488.4 kv.m-lik trenajor zalı, 363.42 kv.m güləş zalı, 455.22 kv.m voleybol və basketbol zalı, 119.2 kv.m-lik boks zalı, 119.2 kv.m karate zalı çox qısa zamanda tam istifadəyə veriləcək. 71.12 kv.m-lik toplantı zalı, 13 sanitar qovşağı, 10 yuyunma otağı, 9 soyunub-geyinmə otağı, kafesi, 5 məşqçi zalı, 7 inzibati otağı artıq istifadəçilərin ixtiyarındadır".

Cəlbedici olan sadəcə şəraitidirmi? Əlbəttə ki, yox. Yerləşdiyi mövqe də onu bir çox idman komplekslərindən fərqləndirir. Şəhərin mərkəzində yerləşməsi, ətrafında universitetlərin olması, peşəkar məşqçiləri, idmanla məşğul olmaq istəyən hər kəsi maraqlandıra bilər və maraqlandırıb da. Təmirdən sonra açılışı belə olmadan sarayda peşəkar yarışlar təşkil edilibsə, bu, idman aləmində sarayın yolunun gözlənilən olduğunun bir göstəricisi deyilmi?

### Bu zalda elan ediləcək qalib Azərbaycanı təmsil edəcək

Əlbəttə, göstəricisidir. Budur, bu gün Sarayın rəsmi açılışıdır. Tədbir 2017-ci il badminton üzrə Azərbaycan çempionatının final oyunu ilə müşayiət olunacaq. Noyabrın 13-dən start götürən 12 qız və 22 oğlan iştirakçının qatıldığı badminton üzrə Azərbaycan çempionatının final oyunu məhz bu günə təsadüf edəcək.

2018-ci il Azərbaycan ali təhsil müəssisələrinin komandaları arasında keçiriləcək çempionatın püşkatma mərasimi də məhz açılış zamanı baş tutacaq və rəqiblər müəyyənləşdiriləcək. May ayına qədər davam edəcək bu çempionatın qalibi Avropada klublararası çempionatda Azərbaycanı təmsil edəcək.

### Zaman o zamandır ki...

Beləliklə, tələbələrin idmanla məşğul olmaq üçün daha bir məkanı var. Özü də beynəlxalq səviyyədə. Odur ki, zaman qolları çirməyib qurşaq tutub, qılınc oynadıb qələbə qazanmaq zamanıdır. Haydı meydançaya!